Tarix və onun problemləri, №4 2009

**RƏŞAD SADIQOV**
*Bakı Dövlət Universiteti,*
*Beynəlxalq münasibətlər kafedrasının aspirantı*

# AVROPA İTTİFAQININ ŞƏRQ SİYASƏTİNDƏ YENİ MEYARLAR – «AVROPA QONŞULUQ SİYASƏTİ» VƏ «ŞƏRQ TƏRƏFDAŞLIĞI»

Üçüncü minilliyin əvvəlində Avropada formalaşmış vəziyyət özünəməxsusdur. Qitənin tarixində ilk dəfə olaraq, burada nə birbaşa konfrontasiya, nə də bir-birinə qarşı düşmən mövqeyində olan hərbi-siyasi ittifaqlar yoxdur. Avropa dövlətləri ümumi demokratik dəyərlərlə birləşiblər. Bütün bunlar təhlükəsiz və inkişaf edən Avropanın qurulmasına zəmin yaradır.

Avropa İttifaqının (Aİ) inkişafının yeni mərhələsində onun məkanca dəyişilməsinin prioritet vəzifəsi kimi Şərqə doğru genişlənmə siyasəti çox əhəmiyyətli yer tutur. Bununla əlaqədar olaraq, Aİ-nin müasir geoiqtisadi strategiyasını təhlil etmək, Şərqi Avropa ölkələrinin İttifaqa qəbul edilməsi nəticəsində Aİ-nin öz sərhəddlərindən şərqdə yerləşən qonşuları ilə qarşılıqlı əməkdaşlığını nəzərdə tutan və bu əməkdaşlığı şərtləndirən ümumi şərq siyasətinin formaşasını, bu siyasətdən irəli gələn mühüm regional əhəmiyyətli proqramların qəbul edilməsini və həyata keçirilməsini qiymətləndirmək əhəmiyyətlidir.

Aİ-nin digər təşkilatlardan fərqi, ilk növbədə qarşıya qoyulmuş vəzifələrin qloballığından və onların həllinə kompleks yanaşmadan ibarətdir. İkinci Dünya müharibəsindən sonra yaranmış beynəlxalq şərait ilk növbədə iqtisadi əməkdaşlığın genişləndirilməsini tələb edirdi, çünki yeni dünyanın ilk növbədə iqtisadi modeli qurulmalı idi. Bu isə ictimai-iqtisadi həyatın getdikcə beynəlmiləlləşəciyini əvvəlcədən şərtləndirirdi. Avropada yaradılmış beynəlxalq əməkdaşlıq strukturlarının rolunun, vəzifələrinin, fəaliyyət prinsiplərinin yenidən qiymətləndirilməsi «soyuq müharibənin» başa çatmasından sonra mühüm nəticələrdən biri oldu [5, 78].

Fransız politoloqu De Benuaya görə «milli dövlət öz əhəmiyyətini itirdiyi üçün, gələcək «böyük məkan»ındır. «Böyük məkan» Avropa dövlətləri birliyi, Avropanın qüvvə balansı yaradan praqmatik siyasi blokudur. «Böyük məkan» Urala qədər olan coğrafi sahəni əhatə edir, yüzə qədər dövləti birləşdirir və bu məkanda yaşananlar «Avropa vətəndaşı» adlanırlar». 1993-cü ilin dekabrında Hannoverdə Roma klubunun 25 illiyinə həsr olunmuş müşavirədə qəbul olunmuş bəyannamədə deyilir: «Biz Avropanın gələcəyinə inanırıq. O, bəşəriyyətin əlindədir. Hansı yolun seçilməsindən sonsuz ümidlər, yaxud da Avropanın ümidsiz sonu asılıdır» [4, 9].

Aİ-nin xarici siyasi fəaliyyəti hazırda üç fundamental itiqamət üzrə yönəlmişdir: xüsusilə, Aİ-nin ümumi büdcəsinin islahatı yolu ilə yeni üzv-dövlətlərin sosial-iqtisadi inkişafdakı geriliyinin aradan qaldırılması; Avropa İttifaqının Qərbi Balkan ölkələrinə və Türkiyəyə doğru genişlənmə prosesinin inkişafı; Şərqi Avropa və Cənubi Qafqaz ölkələri ilə dərinləşdirilmiş assosiasiyanın qurulması [7, 48].

Yaxın tarixdən məlum olduğu kimi, AFR-in yeni şərq siyasəti dedikdə 70-ci illərdə SSRİ başda olmaqla sosialist ölkələri ilə münasibətlərinin yaxşılaşması, onun İkinci dünya müharibəsinin yekunları ilə barışması və ADR-in mövcudluğunu qəbul etməsi nəzərdə tutulurdu. Soyuq müharibənin fəal iştirakçılarından biri olan AFR bu siyasətə hər şeydən əvvəl, dünyada yaranmış vəziyyəti nəzərə alaraq keçmişdir. Bu həm də 1969-cu ilin sonunda ölkədə hakimiyyətə gəlmiş «kiçik koalisiya» hökumətinin (ASDP və ADP-dən ibarət olan V.Brandt-V.Şeel hökuməti) siyasəti idi. Həmin hökumət SSRİ

ilə iqtisadi əməkdaşlığın əhəmiyyətini, AFR-in dünya siyasətində təsirini artırmağın zəruriliyini nəzərə alaraq və Almaniyanın gələcəkdə dinc yolla birləşməsinə şərait yaratmaq məqsədi ilə şərqə üz tutdu. AFR-in yeni şərq siyasəti beynəlxalq gərginliyin zəifləməsinə kömək edən amillərdən biri oldu [2, 95].

1989-cu ildən ötən illərdə (Şərqi Avropanın azad olması) sosialist ölkələrin bir hissəsi – Şərqi Almaniya, Çexiya, Macarıstan, Sloveniya əsasən siyasi demokratiyaya, bazar iqtisadiyyatına, vətəndaş cəmiyyətinə keçməyi bacardılar. Digərləri – Polşa, Slovakiya, Baltik ölkələri bu yolla uzaq getdidər və artıq onların hərəkətini dönməz edən bir həddə çatdılar. Üçüncü qrup – Rumıniya, Bolqarıstan, Xorvatiya – prinsipcə öz inkişafını qərb vektoru ilə müəyyənləşdirdilər. Dördüncü – Serbiya və Çernoqoriya, Bosniya və Hersoqovina, Makedoniya, Albaniya – onların daxili inkişafı üçün əlverişli xarici şərtlər yaradan Qərbin (əvvəlcə NATO, sonra, XXI əsrin əvvələrindən – Avropa İttifaqının) cazibə və siyasi məsuliyyət zonasına daxil oldular [8, 14].

Aİ-nin şərq siyasəti Almaniya üçün həmişə xüsusi istiqamət olmuş və Aİ, eləcə də, onun tərəfdaşları tərəfindən də o cür qəbul edilmişdir. 1994-cü ildə Aİ-nin Şərqə doğru genişlənməyə başlaması ilə bu siyasət yeni mərhələyə qədəm qoymuşdur. Aİ özünün təsəvvürləri arasında assosiasiya yaratmaq siyasəti çərçivəsində bir tərəfdən, Mərkəzi və Şərqi Avropanın İttifaqa üzv olmağı nəzərdə tutan dövlətlərilə belə desək, «Avropa müqavilələrinin» imzalanmasına (Polşa və Macarıstan birinci oldular) başladı. Ancaq bununla eyni vaxtda, Aİ həm Rusiya ilə, daha sonra isə digər MDB dövlətləri ilə tərəfdaşlıq və əməkdaşlıq haqqında müqavilələr bağladı. Bu müqavilələrin ratifikasiyası uzun bir müddət tələb etdiyinə görə, tərəfdaşlıq və əməkdaşlıq haqqında müqavilələrdə nəzərdə tutulan ticarət əsasnamələrinin dərhal uyğunlaşdırılması haqqında müvəqqəti sazişlər imzalandı (məsələn, Rusiya ilə 1995-ci ildə). Bunun nəticəsində, bu gün Rusiya ixracının böyük hissəsi üçün çox əlverişli şərait yaradılmışdır və dünyanın ən böyük daxili bazarına – Aİ bazarına kəmiyyət baxımından məhdudlaşdırılmadan daxil olmaq imkanına malikdir. Bu ixracın böyük hissəsi üçün «Aİ-yə açılan qapı» isə Almaniyadır [14].

Qərbi Avropada Mərkəzi və Şərqi Avropa ölkələrinin Aİ-yə daxil olması iqtisadi deyil, əsas etibarilə siyasi fikirlərlə şərtləşir. Belə nöqteyi-nəzər rəsmi səviyyədə də bir neçə dəfə elan edilmişdir. Avropa Komissiyasının yüksək mövqe tutan məmurlarından biri olan Frezer Kameron bunu daha dəqiq qeyd etmişdir: «Genişlənmə – İttifaq üçün Avropada sülhə, təhlükəsizliyə, stabilliyə və inkişafa yardım edən siyasi imperativdir. Yunanıstanı, İspaniya və Portuqaliyanı Aİ-yə cəlb edən genişlənmənin əsas mahiyyəti totalitar rejimlərə son qoyulmuş bu dövlətlərdə demokratiya və stabilliyin möhkəmlənməsi idi. Mərkəzi və Şərqi Aİ-nin üzvü olmaları da eyni mahiyyəti daşıyır» [10, 251].

Aİ-nin dərin transformasiyası ilə bərabər onun genişlənməsi də dəyişilmiş İttifaqın ətraf ölkələrlə, eləcə də şərq qonşuları ilə münasibətlərinin, müasir dünyanın və beynəlxalq münasibətlərinin fəaliyyət mərkəzi kimi möhkəmlənməsi strategiyasının axtarılmasını ön plana çəkdi. Bir çox Avropa geopolitikləri başa düşürlər ki, əksər hallarda bütün dünyada beynəlxalq stabillik birləşmiş Avropanın geopolitik vektorundan asılıdır. 2004-cü ilin baharında Aİ-nin genişlənməsi Avropa liderləri qarşısında XXI əsrdə Avropa geoplitikasını bir çox hallarda müəyyənləşdirəcək cavablar axtarışında olan bir sıra yeni suallar qoydu.

Aİ-nin Şərq sərhəddi qitədə çox mühüm xətt təşkil edir. Bununla bağlı olan şanslar və təhlükələr Brüsselin siyasətindən asılı olacaq. Aİ ölkələrinin, xüsusən, onun yeni Şərqi Avropalı iştirakçı-ölkələrinin strategiyası sözügedən xəttin yeni dəmir pərdə və ya əməkdaşlıq xətti olacağını həll edə bilər. Bilavasitə qonşuluq qanunsuz miqrasiya, qaçqınlar, qaçaqmalçılıq kimi təhlükələr yaradır. Lakin, eyni

zamanda əməkdaşlığın genişlənməsinə yardım edir, proseslərin inkişafına və sərhəddin hər iki tərəfində yerləşmiş ölkələr arasındakı məsafənin qısaldılmasına imkanlar yaradır [6, 13].

2004-cü ilin may ayında həyata keçirilən genişlənmə nəticəsində Avropa ittifaqının periferiyasına yeni Şərq qonşularını gətirdi. Aİ-nin genişlənməsinin qanunauyğun nəticəsi onun müasir dünyada beynəlxalq vəziyyətinin və rolunun dəyişməsidir. Burada əsas vəzifələrdən biri Şərq qonşularına münasibətdə birləşdirilmiş və effektiv siyasətin həyata keçirilməsidir. Avropa İttifaqı çalışır ki, 2004-cü və 2007-ci illərdə yeni dövlətlərin qəbul edilməsindən sonra genişlənmiş İttifaqla onun qonşuları arasında yeni maneələr yaranmasın. Şərq qonşularının Aİ ilə ticarət, siyasi əməkdaşlıq, ətraf mühitin müdafiəsi, həmçinin, elm və mədəniyyət sahəsində əməkdaşlıq məsələləri üzrə ikitərəfli razılaşmaları mövcuddur.

Aİ-nin genişlənməsi onun strategiyasında və cari fəaliyyətində bir sıra dəyişikliklərə gətirdi. Genişlənmiş İttifaqın öz siyasətini dəyişilmiş tələblərə və imkanlara uyğunlaşdıraraq yeni çağırışlar qəbul etdiyi əsas sahələrdən biri – xüsusilə, Aİ-nin ən yaxın qonşu-şərq ölkələri – Rusiya, Ukrayna, Belarusiya və Moldova, Cənubi Qafqaz ölkələri ilə xarici əlaqələridir. Aİ-nin şərq siyasətini yenidən müəyyənləşdirmək ehtiyacı bir sıra cəhətlərdən yaranır. Son tarixi genişlənmələr ilk növbədə Aİ-nin adı çəkilən dövlətlərə coğrafi cəhətdən yaxınlaşması deməkdir. 2004-cü ildə Belarusiya və Ukrayna Aİ-nin bilavasitə qonşuları oldular, Aİ və Rusiya arasında sərhədlərin ölçüsü artdı. Belə ki, Kalininqrad vilayəti hər tərəfdən Aİ üzv-dövlətləri ilə əhatə olunmuşdur [9, 5] Aİ-nin siyasətinin dəyişilməsinin vacibliyi yalnız coğrafi yaxınlıqdan irəli gəlmir. İlk növbədə, Aİ-nin yeni üzvlərinin bir çoxu şərq qonşuları ilə güclü iqtisadi əlaqələri mövcuddur. Həmçinin, onların ərazisindən Rusiya, Ukrayna və Belarusiyanı Qərbi Avropa ilə birləşdirən mühüm nəqliyyat dəhlizləri keçir. Burada yalnız dəmir yolu və şosse yolları deyil, həmçinin, qaz və neft kəmərlərini, neft terminallarını göstərmək olar.

Avropa Komissiyasının kommünikesində qeyd olunduğu kimi, Aİ-nin qonşulara münasibətdə siyasətinin əsas məqsədi iqtisadi əməkdaşlığın dərinləşməsi, həmçinin, istənilən transsərhəd təhlükələri ilə mübarizədə qarşılıqlı fəaliyyətin genişləndirilməsi olmalıdır. Bu cür kooperasiyanın nəticəsi kimi bütün Aİ-nin və onun yaxın ətrafını əhatə edə biləcək ümumi dəyərlərə əsaslanan siyasi və iqtisadi stabillik zonasının yaradılması olmalıdır. Bu məqsədlərə, ilk növbədə, qonşu ölkələr tərəfindən Aİ standartlarının və qanunvericiliyinin tədricən qəbul edilməsi yolu ilə nail olunması güman edilir.

Aİ-nin postsovet məkanındakı dövlətlərlə münasibətləri xarici siyasətin tam istiqaməti kimi 2002-2004-cü illərdə Aralıq dənizi hövzəsi ölkələri ilə əməkdaşlığı nəzərdə tutan AQS işlənib hazırlandığı zaman formalaşmağa başlamışdır. Aİ-nin Şərqə doğru genişlənməsi nəticəsində yeni üzvlərin qəbulundan sonra onun xarici siyasətinin bu istiqaməti Brüssel üçün kifayət qədər çox əhəmiyyətli oldu.

Aİ 2003-cü ilin mart ayında özünün yeni sərhədlərini müəyyənləşdirmək məqsədilə «Yeni qonşuluq Siyasəti»nə start verdi. Bu siyasət coğrafi cəhətdən Ukrayna, Belarusiya, Moldova, Azərbaycan, Ermənistan, Gürcüstan, Mərakeş, Tunis, Əlcəzair, Misir, İsrail, Livan, İordaniya və Fələstin Muxtariyyətini əhatə edir. Qeyd etmək lazımdır ki, Aralıq dənizinin cənub ölkələri Yunanıstan, İspaniya və Portuqaliyanın 1980-ci ildə İttifaqa daxil olmasından sonra Aİ-yə qonşu olmuşdur və bir növ «köhnə qonşular» hesab olunurdular. Lakin, Aİ Yeni qonşuluq siyasətinə onları da cəlb edərək bu dövlətləri Şərq qonuşuları ilə eyni səviyyədə görmək niyyətində olduğunu bəyan etmişdir.

Aİ-nin Qonşuluq siyasəti ilə bağlı ilkin sənəd «Daha Geniş Avropa-Qonşuluq: Şərq və Cənub qonşuları ilə əlaqələr üçün yeni Çərçivə» (2003) adandırılmış, daha sonra sənədin adı «Yeni Avropa Qonşuluq Siyasəti» və sonda «Avropa Qonşuluq Siyasəti»nə (AQS) dəyişdirilmişdir (2004 may) [18].

AQS-in ilkin məqsədi Aİ-nin və onun qonşuları arasında kəskin fərqlərin yaranmasının qarşısını almaqdır. Lakin «Daha geniş Avropa» konsepsiyasının «Avropada Qonşuluq» konsepsiyasına dəyişdirilməsi bir növ sərhəd məsələləri ilə bağlıdır. Avropa Komissiyasının Qonşuluq Siyasəti ilə bağlı strateji sənədində qeyd olunuğu kimi AQS-in məqsədi Aİ-nin 2004-cü ildə həyata keçirdiyi genişlənmənin verdiyi töhfələri qonşu ölkələrlə paylaşmaqdır. Aİ-nin bu istiqamətdə rəsmi sənədlərinin çoxluğu ilə bərabər, bu siyasət eyni zamanda həmin ölkələrə Aİ-nin layihələrində iştirak etmək imkanı verdi [11]. Qarşılıqlı əlaqələr qanuni dövlətçilik, insan hüquqlarına hörmət, bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə münasibətdə qarşılıqlı öhdəlik prinsipinə əsaslanır.

Bəziləri elə hesab edir ki, AQS Aİ-nin genişlənməsinin növbəti mərhələsidir. Lakin qeyd edilməlidir ki, AQS əslində genişlənmədən sonrakı strategiyadır. Bu siyasətə cəlb olunan ölkələr yeni genişlənmə mərhələsinə namizəd ölkələr olmayacaqlar. Avropa İttifaqı rəsmilərinin də qeyd etdiyi kimi onlar AQS-i azad ticarət zonasına çevirmək fikrində deyillər. Bununla belə, yeni qonşular İttifaqın instiututları istisna olmaqla, bütün töhfələrindən yararlanacaqlar.

Avropa Komissiyasının Xarici Siyasət və AQS üzrə Komissarı xanım Benita Ferrero Valdner AQS-nin mahiyyətini daha aydın şəkildə bildirmişdir: «Gəlin Avropa Qonşuluq Siyasətinin nədən ibarət olduğunu aydınlaşdıraq. Bu genişlənmə siyasəti deyil. Avropa Qonuşuluq Siyasəti yeni qonşuların Avropa İttifaqının layihələrində daha eniş iştirakı və daha proqressiv inteqrasiyanı nəzərdə tutur».

Qeyd etmək lazımdır ki, Aİ-nin sərhədləri ətrafında yaranan qeyri-müəyyənlik sərhədlərin aradan qaldırılması və ya onların artıq lazımsız olduğu demək deyil. Əksinə, AQS Aİ-nin öz sərhədlərini dəqiq müəyyənləşdirmək yolunda atılan ən uğurlu addımlarından biri hesab olunmalıdır. Hər-halda bu siyasət Aİ-yə müəyyən müddətə, yəni gələcək genişlənməyə qədər sərhədlərinin hüdudlarını dəqiqləşdirmək imkanı verəcəkdir.

1990-cı illərin əvvəllərindən etibarən Avropa inteqrasiyasının dərinləşməsi Aİ-nin Cənubi Qafqaz regionunda geniş maraq dairəsinin formalaşmasına şərait yaratmış oldu. Aİ-nin regional siyasətinin təşəkkülü bir neçə mərhələdən ibarətdir. Onların hər biri Aİ-nin regionda iştirakının genişlənməsini təmin edərək Aİ-nin Cənubi Qafqazda məqsədlərinin spektri genişlənmiş, yeni məqsədlər əvvəlkiləri tamamlamış və biri-birilə əlaqəli olmuşdur. Ümumiyyətlə, Aİ tərəfindən Cənubi Qafqaz ölkələri üçün yaradılan proqramlar Cənubi Qafqazda daxili və beynəlxalq stabilliyin möhkəm siyasi strukturlarının formalaşmasına istiqamətlənmişdir. Almaniya, Böyük Britaniya və Fransanın Cənubi Qafqazda fəal müstəqil siyasəti Aİ-nin regional siyasətinin işlənməsində onların həlledici rolunu müəyyənləşdirdi.

Aİ Komissiyasının «Şərq tərəfdaşlığı» layihəsinin həyata keçirilməsi təklifi Aİ ilə Şərqi Avropa və Cənubi Qafqazın ayrı-ayrı yeni müstəqil dövlətləri arasındakı münasibətlərin inkişafının yeni mərhələsini göstərir. «Şərq tərəfdaşlığı»nın başlıca məqsədi – Avropa İttifaqının onun sərhədlərindən şərqdə yerləşən region ölkələri ilə münasibətlərinə yeni impuls verməkdir.

2009-cu ilin iyun ayında iştirakçı dövlətlər tərəfindən təsdiq edilmiş «Şərq tərəfdşlığı» proqramı Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Ukrayna, Belarusiyanın Aİ-yə müəyyən mənada alterantiv üzvlüyünü nəzərdə tutur. Bu tərəfdaşlıq sadala-

nan 6 postsovet respublikalarına şamil edilir. Belə bir qərar regionun Avropa İttifaqının təhlükəsizliyi və stabillyi üçün «müstəsna əhəmiyyəti» nəzərə alınmaqla qəbul edilmişdir [16].

Proqram çərçivəsində vizaların ləğvi, azad ticarət zonasının yaradılması və üzv ölkələrlə strateji sazişlərin imzlanması ilə əlaqədar danışıqlar aparılması Eyni zmanda tələbə mübadiləsi, ətraf mühitin müdafiəsi, enerji təhlükəsizliyi üzrə layihələr həyata keçirilməsi nəzərdə tutulur.

Deklarasiyanın mətnində deyilir: «Praqa sammitinin iştirakçıları razıdırlar ki, «Şərq tərəfdaşlığı» proqramı demokratiya, qanunun aliliyi və insan hüquqlarına və əsas azadlıqlara hörmət kimi fundamental dəyərlər üzrə öhdəliklərə və beynəlxlq hüquq, bazar iqtisadiyyatı, stabil inkişaf prinsiplərinə əsaslanacaq» [17 ].

Mətndə həmçinin qeyd edilir ki, «Şərq tərəfdaşlığının» əsas məqsədi – siyasi assosiasiasiyaların möhkəmləndirilməsi və Aİ və proqramın üzv-dövlətləri arasında gələcək iqtisadi inteqrasiya üçün zəruri şərtlərini yaratmaqdır.

Deklarasiyada postsovet ölkələrində qərb tipli ictimai institutların yaradılmasında, Aİ-nin bazarları altında iqtisadi modellərin dəyişilərək azad ticarətin dərinləşdirilməsi və viza rejiminin tam liberallaşdırılması üçün lazımi addımların atılması üçün Aİ-nin yardımı nəzərdə tutulmuşdur.

Ərazilərində dondurulmuş münaqişələrin mövcud olduğu ölkələrlə (Azərbaycan, Moldova, Gürcüstan) bağlı olaraq xüsusi maddə mövcuddur və orada Praqa sammitinin iştirakçıları münaqişələrin tezliklə sülh yolu ilə nizama salınmasının vacibliyini qeyd etmişlər.

Deklarasiya «dəyirmi stolların» təşkilini nəzərdə tutur. «Şərq tərəfdaşlığının» və Aİ-nin üzv-ölkələrnin liderləri iki ildə bir dəfə, xarici işlər nazirləri isə hər il görüşəcəklər. Sənəd həmçinin milli parlamentləri «Aİ-Şərq tərəfdşlığı» Parlament Assambleyasını və Avropa Komissiyası tərəfindən «Şərq tərəfdaşlığının vətəndaş cəmiyyətləri üçün Forum» yaratmağa çağırır [17 ].

Şərqə doğru genişlənmənin nəticələri haqqında siyasətçilər, diplomatlar arasında və ictimai rəydə həmişə müzakirələr gedir. «Böyük Avropanın» yaranması bilavasitə Rusiyaya da toxunur, belə ki, genişlənmə Sovet İttifaqının geopolitik maraq dairəsində olan ölkələr hesabına həyata keçirildi. Buna görə də, bəzi MDB dövlətləri də üzvlüyə namizəd ölkələr sırasında ola bilər. Məsələn, Brüsseldə potensial namizəd kimi sayılmasa da Ukrayna və Gürcüstan öz qarşısında bu məqsədi qoyur. Lakin geopolitik vəziyyət istənilən anda bütün təhlilləri üstələyərək gözlənilməz vəziyyət ala bilər. Lakin hələ ki, bir şey aydındır: Rusiya Aİ-yə daxil olmayacaq. Bununla əlaqədar Fransanın xarici işlər naziri A.Jyupenin Avropa qitəsində yalnız iki iştrakçı – Aİ və Rusiya Federasiyasının qalacağını düşünür. Onu da qeyd etmək lazımdır ki, V.Putininin prezidentliyi dövründə Rusiya siyasi elitası Aİ-nin Şərqə doğru genişlənməsinə tez ya gec baş verəcək fakt kimi yanaşmağı, bununla barışmağı və öz diqqətini bu hadisənin nəticələrinə yönəltməyi öyrəndi.

Aİ hazırda böyük siyasi oyunçu qismində çıxış edir (2007-ci ildən etibarən üzv-dövlətlərin əhalisinin sayı təxminən 500 mln. nəfərdir) və keçid dövrünün bütün məsuliyyəti və ağırlıqları onun üzərinə düşür [15]. Ehtimal olunur ki, şərq bloku və totalitarizm dağıldıqdan sonra Avropaya can atan xalqların və ölkələrin məqsədi nəinki onların coğrafi təhlükəsizliyi ilə əlaqədar idi, həmçinin onların çoxu üçün Avropa əlçatmaz idi. Əsrlər boyu ABŞ məhz bu mövqeyə iddia edirdi. Qeyd etmək lazımdır ki, «soyuq müharibə»nin başa çatması Avropanın iki düşmən cəbhəsinə bölünməsi kimi qeyri-adi geosiyasi təsəvvürə son qoydu. Əslində Şərqi Avropa ölkələri Avropa ilə yenidən birləş-

dilər. Şərqi Avropa və Qərbi Avropa anlayışları yenidən öz ilkin siyasi-coğrafi və geosiyasi əhəmiyyətini qazandı və vahid Avropaya çevrildi [1, 180].

Aİ-nin bütün dünyada stabilliyi möhkəmləndirmək və dəstəkləmək cəhdi ilə əlaqədar olaraq müdafiə Avropa ümumi xarici və təhlükəsizlik siyasətinin əsas aspektinə çevrilir. Aİ terrorizmlə, beynəlxalq cinayətkarlıqla, narkotik qaçaqçılığı, qeyri-qanuni immiqrasiya və ətraf mühitin müdafiəsi kimi qlobal problemlərlə mübarizədə dünyanın digər ölkələri və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Hazırda Aİ-nin başlıca vəzifələrindən biri öz sərhədlərindən kənarda sülhü və təhlükəsizliyi genişləndirməkdən ibarətdir. Sözügedən problemin həllini təmin etmək üçün Aİ ona geniş dünya kontekstində stabillk, əməkdaşlıq və qarşılıqlı anlaşma faktoru qismində fəaliyyət göstərməyə imkan verən ümumi xarici siyasət və təhlükəsizlik strategiyasının işlənməsi ilə məşğuldur.

«Böyük Avropanın» yaradılması qloballaşmanın özündə daşıdığı reallıqlara cavab kimi də qəbul edilə bilər. Avropa İttifaqı Yunanıstan, İspaniya və Portuqaliya kimi o zaman üçün iqtisadi baxımdan çox da inkişaf etməmiş ölkələrin qoşulmasını və onların inkişafını təmin etməyə nail oldu. Aİ Rusiyanın əsas tərəfdaşıdır. Geopolitik nöqteyi-nəzərdən Aİ və Rusiya ABŞ-ın «yeni dünya nizamına» bir çox cəhətdən qarşı olan belə desək, «yeni Avropa nizamının» formalaşmasında bərabərhüquqlu aktorlar ola bilərlər. ABŞ-ın NATO-da əsas rol oynamasına baxmayaraq, Aİ Avropa qitəsində maliyyə-iqtisadi və siyasi «oyunların qaydalarını» müəyyənləşdirən başlıca aktordur. Aİ tədricən perspektivdə ABŞ-ın hegemonuğuna ciddi təsir göstərə biləcək geni güc mərkəzinə çevrilir. Geopolitik nöqteyi-nəzərdən Aİ-nin Şərqə doğru genişlənməsi ABŞ-la gizli və ya aşkar yarışda Avropanın xeyrinə olan daha bir addım oldu. XXI əsrin ilk onilliyi təkcə klassik geopolitika deyil, həm də geopolitikadan geoiqtisadiyyata keçid dövrü olacaq.

### *ƏDƏBİYYAT*

1. Abbasbəyli A.N. Beynəlxalq münasibətlərin proqnozlaşdırılması nəzəriyyəsi. B., 2006.. – 345 s.
2. Abdullayev M. Beynəlxalq münasibətlər tarixi: (Dərslik) / Elmi red. Musa Qasımov, M.Baxışov: II hissə. XX əsr. (1945-2000-ci illər). .- B.: Mütərcim, 2000. – 358 s.
3. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. – Bakı «Azərbaycan» nəşriyyatı, 2005. – 752 s.
4. İmaməliyeva Ü. Azərbaycanın Avropa Şurası ilə əlaqələri: siyasi əməkdaşlığın istiqamətləri. – B.: Şirvannəşr, 2007.-166 s.
5. Sadıqov R.Ə. Böyük Britaniya və Avropa inteqrasiyası (1945-2005-ci illər) / elmi red. Z.M.Həsənalıyev, rəyçi A.N.Abbasbəyli/ : monoqrafiya. - B.: Mütərcim, 2006. – 142 s.
6. Любин В. Миграция как один из вызовов европейской безопасности. // Европейская безопасность: события, оценки, прогнозы. – М., 2005. - № 1. – С.76-81
7. Посельский В. Европейский Союз после ратификации Лиссабонского договора // Зеркало недели. – 2009. – №38 (766) 10-16 октябр.-С.48-54
8. Тренин Д. Интеграция и идентичность: Россия как «Новый Запад» / Моск Центр Корнеги – М.: Изд-во Европа., 2006.-404 с.
9. Шенген: новый барьер между Россией и ЕС?. – М.: Комитет «Россия в объединенной Европе», 2002. – 247 с.
10. Cameron F. The European Union and the Challenge of Enlargement // The Enlarging the European Union: Relations Between the EU and Central and Eastern Europe / Ed. by Maresceau M. L. – N.Y.: Longman, 1997. – P.251.
11. Joint letter on Wider Europe by Commissioner Chris Patten and High Representative Solana. 8 August 2002; Wider Europe-Neighbourhood: A New Framework for Reltionswith our Eastern and

Southern Neighbours. COM (2003) 104 final. Brussels, 11.3.2003; European Neighbourghood Policy. Strategy Paper. COM (2004) 373 final. Brussels, 12.5.2004.
12. Sadigov R. European integration – from European Community to European Union // Федерация. – 2009. - № 10 (65). – С.12-15.
13. http://www.rustrana.ru/rubrics
14. http://www.moskau.diplo.de/Vertretung/moskau/ru/03/Multilaterale__Beziehungen__/Europaeische_Union.html
15. http://www.perspektivy.info/oykumena/europe/evropeiyskiiy_mir_posle_1989_goda_2007-7-30-58-53.htm
16. http://news.bakililar.az/news_koqda_vostochnoe_partnerst_22669.htm
17. http://www.day.az/news/politics/155529.html
18. http://www.europa.eu.in

**РАШАД САДЫГОВ**
***Аспирант кафедры Международные отношения Бакинского Государственного Университета***

## НОВЫЕ КРИТЕРИИ ВОСТОЧНОЙ ПОЛИТИКИ ЕВРОПЕЙСКОГО СОЮЗА – «ЕВРОПЕЙСКАЯ ПОЛИТИКА СОСЕДСТВА» И «ВОСТОЧНОЕ ПАРТНЁРСТВО»

В статье анализируется проблемы как, основные этапы развития восточной политики Европейского Союза, отношении союза с восточными соседями особенно после последних расширений (в 2004 и 2007 гг.), а также основные черты и цели программ которые были подписаны и приняты со странами-участниками проектов как «Европейская Политика Соседства» (ЕПС) и «Восточное Партнёрство» (ВП). Наряду с этим в статье использованы высказывание высокопоставленных Европейских руководителей о будущем Союза и последствиях ЕПС и ВП. Также показано, что, реализация этих проектов является более реальным способом импорта Европейских ценностей.

**RASHAD SADIGOV**
***Aspirant of International relations department of Baku State University***

## NEW CRITERIES OF EASTERN POLICY OF EUROPEAN UNION – «EUROPEAN NEIGHBORHOOD POLICY» AND «EASTERN PARTNERSHIP»

In article is analyses the problems, as basis stages of eastern policy of European Union, relations of union with eastern neighbors, especially after the last expands (in 2004 and 2007), thus basis lines and aims of programs which were signed and accepted by participation-countries of projects as «European Neighborhood Policy» (ENP) and «Eastern Partnership» (EP).The statements of high-ranking European officials about the future of the European Union and the effect of ENP and EP are given in the article in order to show their positions in regard to the ENP, EP and Enlargement Strategy. The article concludes that, the realization of these projects is more tangible way for import of European values.

***Rəyçilər: t.e.n.A.M.Mirabdullayev, t.e.d.M.Qasımlı.***
***BDU «Beynəlxalq münasibətlər» kafedrasının 15 sentyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***